# ELEGİYA VƏ FƏXARƏT TÜRKÜLƏRİ

## Ədəbi tənqid müstəvisində düşüncələr



*Əkbər ƏLİOĞLU,*
*filologiya üzrə fəlsəfə doktoru*

23-cü il özünün dördüncü ayındadır. Azərbaycan Yazıçılar Birliyinin qurultayından isə bir il ötməyib. Birliyin qurultay öncəsi məruzələr kitabında 11 nəfər məruzəçinin çıxışları toplanıb. Kitabda qurultay hesabatı olaraq 200-dən artıq yaradıcı simaların bədii təsərrüfatı şərhə cəlb edilib. Məruzəçilər tanınmış ədəbiyyat yaradıcılarıdır. Kitab təxminən 300 səhifə həcmindədir. Bu giriş-təqdimatı maraqlı və qəribə bir paradoksallıqla üzləşdirərək əsas hədəfə ünvanlamaq istəyirəm. Hədəfə doğru məqsədim tanınmış və istedadlı yazıçı-publisist Əli Rza Xələflinin son bir illik poetik və ədəbi tənqidi düşüncələrinə oxucu fikrimi bildirməkdən ibarətdir. Paradoksallıq isə belədir: Əli Rza Xələfli 2022-ci il və 2023-cü ilin ilk ayları ərzində dörd kitabını nəşr etdirmişdir. Bəlkə də səhv edirik, daha artıqdır, deyə bilmərəm. Amma qəribəsi budur ki, onun Moskva ədəbi mühitində yetişən Ulduz Qasımın romanları haqqında yazdığı ikicildlik "Yazıçının Vətən dağı" kitabının həcmi yeddi yüz səhifəyə yaxındır. Beş yüz səhifədən bir qədər artıq olan kitablarını ("Həyat lövhələri nəsrin güzgüsündə", "Bir bülbülün türküsü", "Dönməzlik yolu") da buraya daxil etdikdə bu paradoksallığın gözlənilməzliyi həqiqətən təəccüb doğurur. Təəccübün yeganə açarı budur; əzabkeşlik, yaradıcılıq energiyasının tükənməzliyi. Bu paradoksallığı xatırlatmağım başbulayıcı münasibət doğurmamalıdır. Kim buna şübhə edərsə, zəhmət çəkib onları oxusun. Şübhə edən yaradıcı şəxs olarsa, vicdanən öz yaradıcılığı ilə həmin əsərlərin bədii çəkisinə dəyər verəndə mənim yazacağım şərhin həqiqətə söykəndiyinə inanacaq, Əli Rza fenomenliyini şərtsiz, şəksiz qəbul edəcək. İndi isə keçək oxucu düşüncələrimizə. Niyə oxucu? Məlum əsərlər haqqında elə yazılar oxumuşam ki, düşüncələrimlə nəinki uzlaşır, eyni zamanda yüksəkdə dururlar. Buna görə də adi bir oxucu səviyyəsindən onlara münasibətimi açıqlayacağam. Onlardan öncə Ə.Xələflinin qəsidə yazmaq işindəki səriştə və kamilliyini diqqətət çəkmək istəyirəm. Vaxtilə onun Söhrab Tahirə istinadən yazdığı qəsidə həcminə və deyim mükəmməlliyinə görə bizi elə tutmuşdu ki, "Yürüş və zəfər marşı" şeirimizi yazmalı olduq. Və burada həmin şeiri Əli Rza şeirinin budağında işıldaquş kimi səciyyələndirdik. "Kredo"nun №10 (1140) 10 mart 2023-cü il sayında oxuduğum "Türkiyənin zəlzələ ağrıları" adlı Ərdoğana və Türkiyəyə təskinlik üçün yarıqəm-yarıqürur dastanı - qəsidəsi məni "heyrət ey büt..." ovqatına saldı. Dahi ulularımızın bulağından dadan şair sanki onlar bərabəri söz söyləyib, ün ünləyib. Xaqaninin məşhur "Qesideyi-Şiniyyə"sini xatırlayın, Nizaminin Gəncə zəlzələsinin təsvirini verən deyimlərini yada salın.

*Göyləri dağıdan bu zəlzələdən*
*Nə qədər şəhərlər yox oldu birdən.*
*Göylər də Yer kimi olmuşdu rəqsan*
*Fələyin qurduğu bu oyunlardan.*

Əli Rzada isə:

*Əzəmətli saraylar aciz-aciz diz çökür,*
*Fikirlər dilə gəlmir, ağlar-ağlar söz çökür.*

*Bir körpə xilas olur ölümün pəncəsindən,*
*Bir başqa gül üzülür təzə-tər qönçəsindən.*

*Azərbaycan bu dərdin ocağında közlənir,*
*Türkiyənin yanğısı varlığımda sözlənir.*

Məncə izaha ehtiyac yoxdur... Deyimin kimin əlində olan qələmdən çıxdığı artıq göz qabağındadır. Və artıq yazanda ki, qəsidə başdan-başa bu ovqatla, bu mükəmməl poetik vüsətlə müşaiyət olunub, onda Əli Rza Xələflinin müasir Azərbaycan poeziyasında yerini, mövqeyini asanlıqla göstərə bilərsiniz.

*Sultanım, gəldi gedər qovğalar səndən ötər,*
*Turandan ümmanlarca sevdalar sənə yetər*

- deyimi yarıqəmdən yarıqürura keçidi "Sultanım" xitabında asanlıqla müəyyənləşir. Son akkord isə yüksək sənətkaranə bir ustalıqla öz möhürünü vuraraq dastanın bütövlüyünü sonuclanmışdır:

*Sultanım, əyilmə sən, əyilməz Tanrı dağı,*
*Yağılara göz dağı - sönməz Türkün çırağı.*

*Qələm çaldım... güllənsin sözümün gülüstanı,*
*Qoy yaşasın yarı qəm, yarı qürur dastanı...*

Qəsidə haqqında bir kəlmə olaraq yalnız belə demək olar; yaşarısan, yaşadacaqsan. Dastanın oxucusuna xüsusi möhtəşəmlik və gözəllik qatan amillər - sözlərin seçimində arıtlamanın klassik ustalığı, düzümündə cinas və poetik fonetikanın özəlliyi, məzmuna görə formanın, heca bölümünün düzgün seçilməsi və ümumən misra və beytlərdə fikrin metaforik təbiətinin ölçülü, biçili səpkidə çəkərliyi bir sözlə məcazlar sisteminin - bədii təsvir və ifadə vasitələrinin yetərincə bütün mətnlərdə kamilliklə oturaqlaşması ona klassik ucalıq, patetik ovqat, fəlsəfi vüsət bəxş etmişdir. Əli Rza poeziyasına qanad verən isə kükrəyib nəhrinə sığmayan ilhamıdır, həyat və cəmiyyət qarşısında hesabat verməkməsuliyyətidir. Bu işdə onun qolundan tutan zəngin həyat təcrübəsi, müşahidə itiliyi və yorulmaq bilməyən mütaliə mədəniyyətidir. Bütün bunlar onun bədii və elmi təfəkkürünü cilallayaraq Tanrının ona bəxş etdiyi fitri istedadının, fəhminin iradəsilə daha da dərinləşdirir və nəticədə onun düşüncəsini tikanı çiynində yaraq kimi tətikdə saxlayır. Sıralanan bu amillər Ə.Xələflinin bütün poetik təsərrüfatı üçün səciyyəvidir. Aydındır ki, bunlarsız şeiriyyət yoxdur, deməli, şeir də yoxdur, istər bir beytlik söz düzümü olsun, istərsə də müxtəlif tipli şeir formaları, yaxud poemalar... Poemalar demişkən bir qədər də "Bir bülbülün türküsü" və "Dönməzlik yolu" haqqında da olan düşüncələrimizi açıqlayaq."Bir bülbülün türküsü" fidan körpəsinin nəşi üzərində fəryadlı bayatı püskürən yanıqlı bir odadır. Odlandıqca odlanan, ürəyi qanlı ləşkərə çevirən, dünyanı məzəmmət edən məsum bir poemadır. Metaforikləşən bülbül obrazı müəyyən başlıqlar altında hər bir fikir rənginə uyğun poetik formalarla, hətta bəzən poetik ölçüylə bədii nəsrin vəhdəti harmoniyasında dil açıb nalə çəkən bir elegik dastandır, hekayətdir, süjet xətti olmayan epik-lirik ricətdir - söylənilir bir ataya, əmiyə və xüsusən də babaya. Necə ki, vaxtilə Zal babaya poema həsr edən tanınmış şair Yusif Nəğməkar ədəbi mühitdə daha çox sevildi. Əbil Etibar oğlunun bədii ömür salnaməsi də Əli Rza Xələfliyə mənəvi ləyaqət ucalığı gətirdi və gətirəcəkdir. Başqalarının dərdini olduğu kimi yaşamaq və onu dilə gətirmək ən insani və bəşəri bir sərvətdir. Ə.Xələfli bu sərvətin eyni zamanda ictimailəşdirdi, içinin pörşələnən ağrılarını hər kəsin fərdi ağrısına çevirdi. Haqqında poetik mizanlarla söhbət açılan bülbül - gəncliyinin bəhərini dadmaq ərəfəsində nəğməsi ilə birlikdə ədəbi susan Əbil görün nəğməsini necə ötür: yəni müəllif onu bizə necə tanıdır:

*Bülbül də nəğməsini saxlamır, hey ötürdü,*
*Bu nəğmənin yanğısı dörd bir yanı ütürdü...*

*Ərş-əla yanına çağırır hər bir kəsi,*
*Çağırıb cəm eyləyir bülbülün qəmli səsi...*

*Yaşayan sevdaların eşqinə oxuyuram,*
*İki cahan evinin bəxtini toxuyuram...*

Nə yazdığını, necə yazdığını, bəlkə də, çoxumuzdan daha dəqiq bilən şair yanıqlı könül halısini Tanrı ucalığına şəhadət edir. Bilirsiniz bu nə deməkdir? - Tanrı ilə dərdləşmək, dərd, kədər ağırlığını onunla bölüşmək. Bəli özəl, seçilmiş insanlar Tanrıyla "söhbətləşə" bilər. Əli Rza poemada öz obrazını belə yəqinləşdirib:

*Mənim könül dünyamda Füzuli əmanəti,*
*Qoruyar öz yerini bu Tanrı zəmanəti...*

*Mənim könlüm müəllim - Xaqani məktəbimdir,*
*Vətən eşqim, ilhamım, dilim çağlar təbimdir...*

Poemanın ümumi həcmi otuz səhifədir, lakin məlum başlıq altında çap olunan kitabın həcmi isə 116 səhifədir. Bu əlavə ricətlər nəsr libasına bürünərək poemaya dəyər verir, əlavə saçmalar gətirir. Tanınmış ədəbiyyatşünas alimlərin - Qurban Bayramovun (ona salamlarım olsun), Yədulla Ağazadənin düşüncələri poemanın ümumi ruhunu ustalıqla, hissiyyatla şərh edir, müəllifin özünün qeydləri, İmamverdi dədəylə dərdləşməsi - bunlar poema qədər təsirli olaraq onunla harmoniyalaşır.

*(Davamı 3-cü səhifədə)*



*(Əvvəli 1-ci səhifədə)*

Yaradıcılıq polifonizmini şərh edən Q.Bayramov ilk dəfə olaraq bu polifonizmin sahibi Əli Rzanı "qələmsiz qələm adamı" adlandırması təsadüfi deyil. Və bu istilahın açımı artıq ədəbi icmaiyyətə bəllidir. Çoxşaxəli yaradıcılıq polifonizmi... Son bir ildə mən bildiyim sayda çap olunmuş kitablarının həcm tutumu bilirsiniz nə qədərdir? Eləmədim tənbəllik - 1500 səhifədir. Bəs çap olunmuş 53 kitabının həcmi nə qədərdir? - 14000 min səhifəyə yaxın. Bu neçə "Şamo" deməkdir? Nə isə...

Poema haqqında çox dəyərli və yetərincə məqalələr yazılıb. Düşüncələrimin üst-üstə düşəcəyini nəzərə alaraq Ramiz Rövşən demişkən, onların "torunu" silməkdən çəkindim. Çəkindim ki, görəcəyim "təmizkarlıq işi" onların yanında solğun, boynu bükük görünə. Buna görə də Əli Rza məramını Qurban müəllimin sözləri ilə açıqlayıram: "İşıq adamı kor edir, işıq adamı aydınlıqlara çıxarır. Sönməyən işığın haləsində olanlar bir-birini aydın görə bilir.

Əli Rza bu poeması ilə əbədiyyətə - qaranlıqlara qovuşan bir istedadlı gəncin ömrünə məşəl tutdu və bu ömrü əbədi etdi..."

Ə.Xələflinin sinəsi tükənməz söz çılədanıdır, dilimizin incəliklərini, az müraciət olunan izafətlərini məqamında şeirə gətirmək də sərrafdır, arifdir. Onun oxucu çəkərliyi bir də bununla bağlıdır.

Nəsrində də, publisistikasında da, ədəbi tənqidində də, nəhayət, ən əsası şeiriyyətində də belədir. Fəlsəfi düşüncənin ətri, təravəti onun yaradıcılığına filosofanə bir ovqat gətirir. Onun ədəbi biliyi, yaddaş itiliyi və genişliyi qibtəolunandır. O, biliyinin yaddaş itiliyinin, ehtiraslı yaradıcılıq energiyasının vəhdəti hesabına hansı elmi dərəcələr almaya bilərdi? Ümumiyyətlə, dərin erudasiyalılıq, sərhədsiz təxəyyüllük hesabına bənzərsiz üslub təzəliyinə, sədaqət etibarlılığına görə hansı yarlıqlara layiq görülməyib: "Bir institut qədər xidmət" (akademik B.Nəbiyev), "Bütöv bir mərhələ yaradan" (professor Q.Kazımov), "Ədəbiyyat salnaməsi" (xalq şairi Z.Yaqub), "Ən çətin dövrlərdə də mədəniyyəti, ədəbiyyatı yaşadan, fədakarcasına bu dəyərlərin ağır yükünü çiynində daşayan" (ictimai xadim, akademik R.Hüseynov), "Ensiklopedik bilik və analitik təfəkkür sahibi" (f.e.d. professor, İ.Qəribli) və başqaları. Onun "Kredo"su "Molla Nəsrəddin" və "Əkinçi" səlahiyyətində xalqa xidmət etməkdədir. Bu fikri də çıxaq mənim adıma (Ə.Ə). Belə bir şəxsiyyəti məsul hökümət adamlarının yada salmaması, yaxud bunu istəməməsi günahdır, haqsızlıq və vicdansızlıqdır. Nə isə... əsas hədəfə qayıdaq - onun son poemasına.

F.e.d. Elçin Mehrəliyev və professor Mahmud Allahmanlının redaktorluğu və rəyçiliyi ilə nəşr olunan "Dönməzlik yolu" kitabı özünün dərin ictimai və fəlsəfi siqləti ilə daha çox seçilir. Rəngarəng bədii formalarla ifadə olunan poemaların aparıcı forma xəttini məsnəvilik,daha dəqiq desək, qəsidəçilik təşkil edir. Özü də nə az, nə çox, 150 səhifəlik mətndə təxəyyül tükənməzliyi, pafos sürəkliyi və yuxarıda qeyd etdiyimiz bədii sənətkarlığın kamilliklə kriteriyalarının sərgilənməsi məhz Əli Rza ruhunun, əqidəsinin təsdiqi və təntənəsinə xidmətdədir. Yaradıcılıq əzabının qaynar qazanına baş vurmağa hazırlıq mərhələsini o, görün necə və hansı biçimdə elan edir:

*Xələflinin ürəyi oddu, alovdu - dedim,*
*Qığılcımı dil çalan yanmağa qovdu - dedim,*
*Varlığını, qələmi çəkdi qara yazıya,*
*Gün gələr bəxti gülər, söhbətdi, sovdu - dedim.*

Poemaları oxuyarkən əziz dostumun "İçəri şəhər: daşlar və insanlar" poemasını xatırladım. Tarixə, zamana, insan talelərinə bu fonda poetik ricətlər "Dönməzlik yolu"nda da özünü klassik bir səpgidə göstərməkdədir. Bu poema da Əli Rzanın ədəbi səliqəsini, təxəyyül zənginliyini, yaddaş sərvətini yüksək səviyyədə göstərməklə öz müəllifinin qazandığı şöhrət və ləyaqət statusuna sədaqətini səmimiyyətlə, yüksək çəkərliklə elan edə bilmişdir. Poema müəllifin növbəti uğuruna şəhadət imzası ata bilib.




Əslində, "Dönməzlik yolu" poemalar silsiləsi "Dağlarda duman qaldı" (I hissə) və "Ucalıq eşqi" (II hissə) adlanmaqla bir ideyaya xidmət işinə hesablanmışlar. Müəllif kitabın üz qabığının ardına təqdim etdiyi saçmada əsas hədəfə işarə etmişdir:

*Şəxsiyyət kamil olsa, ölməz, hörmətdə qalar,*
*Ləyaqət bir incidir, yenə qiymətdə qalar,*
*Yaşasan həyatını ağ işığın içində,*
*Onu zülmətdə gəzən özü zülmətdə qalar.*

Hədəf isə keşməkeşli, tufanlı mübarizələrlə müşayiət olunan 90-cı illərdə xalqımızın seçilmişləri arasında ləyaqətli və şərəfli yer tutan, siyasi və ictimai xadimdir. Və bu şəxsiyyət ölkə prezidentliyi səlahiyyətini icra edən Yaqub Cavad oğlu Məmmədovdur. Müəllif onun mənəvi aləmini bizə yenidən tanıdarkən tarixin qasırğalarla müşayiət olunan olaylarına müraciət edir. Cavadoğlular soyunun milli mənlik şüuru, cəmiyyət həyatında iştirakı, xalqa xidmətləri, xüsusən Yaqub müəllimin mənəvi kamilliyə doğru inkişafı mərhələləri epik-lirik, eyni zamanda lirik-psixolojiovqatda, yeri gəldikdə, panoram səviyyədə, tribun fəaliyyətdə təqdim olunur. "Ön söz"çünün yazısından bir detalı oxuculara təqdim etmək istəyirəm: "Yaqub Məmmədov XX əsrin siyasi kataklizmlərinin siyasi arenaya çıxardığı ən saf, ən təmiz mənəviyyat adamı idi... Böyük ədəbiyyatın, böyük sənətin qaynağı olan, ola biləcək bir obraz... O, haqqı və ədaləti sevir. O, bu xalqı sevir". "Ucalıq eşqi" poeması həyat həqiqətlərinin bədii həqiqətlə ifadə olunduğu pozada gerçəkləşib. Poemanın qəhrəmanı tarixin özüdür, yoxsa tarixləşən Yaqub Məmmədov? Hər iki hal böyük mənəvi məsuliyyət tələb edir. Axı o böyük ədəbiyyatın, böyük sənətin töhfəsi olan ədəbi obrazdır, tarixi şəxsiyyətdir. Belə insan haqqında yazmaq... Əli Rza Xələfli təmiz və səmimi bir etirafla bildirək ki, bu möhtəşəm abidəni yaratmağın öhdəsindən namusla, fəxarətlə gəlmişdir, - əslində böyük ədəbiyyatın bir nümunəsini yaratmışdır. Yaqub Məmmədov xalqın yaddaşında əbədiyaşar şəxsiyyətdir, ictimai xadimdir. Bu əbədiyaşarlığı Əli Rzanın da qazanması təqdirəlayiqdir.

Biz yuxarıda Ə.Xələflinin ədəbi-tənqidi düşüncəsinin məhsulu olan və 2022-ci ildə çap olunan "Yazıçının vətən dağı" və "Həyat lövhələri nəsrin işığında" kitablarının adını çəkmişdik. Birinci Ulduz Qasımın ümumi yaradıcılığına, ikinci isə İsaxan İsaxanlının "Bir sevgi dastanı" hekayələr toplusunun şərhinə həsr olunmuşdur. Hər iki kitabda biz müəllifi güclü ədəbiyyatşünas - ədəbi tənqidçi kimi görürük. Fəqət necə, hansı səviyyədə? Bax bu ayrıca bir tədqiqat mövzusudur. Və nəzərdən qaçırmayanda ki, bu kitablardan öncə o "Dünyanın söz üzü" (2007), "Dilimiz varlığımız", "Adı Şadiman olan", "Dünya yazana qaldı", "Yaddaşa aparan yollar", "Həyatın dastanı", "Qırmızı həqiqətlər", "Ölməzlik nəğməsi", "Əbədi həyat arzusu", "Aydın abi və Türkiyə ədəbiyyatı", "Söz içində söz", "Sözün yeddi gözəli", "Tənqidçinin azərbaycançılıq idealı", "Həyat həqiqəti" və s. kitablarını nəşr etdirmişdir. Tənqidin tənqidinin ağırlığı qaçılmaz olur. Bu kitabların hər birində onun ədəbi düşüncələri, ədəbi-tənqidi məqalələri, tədqiqatçılıq yönəmində araşdırma və şərhləri özünə yer almışdır. Onların bir çoxunda publisistik notlar, fəlsəfi mühakimələr, bədii emosionallıq, sürəkli epik genişlik diqqəti öncə cəlb edir. Elmi yaradıcılığın digər kriteriyalarını da bütün bu kitabların bətnində görmək mümkündür. Təbii ki, onun fərdi mülahizə və təklifləri, şərhində dəqiqliyi müəyyən fikir ayrılığına, açıqlanması real görünən təkliflərə səbəb olsun, bu sahədə fərdi üslubunun komponentlərinə aydınlatmalar gətirilməsinə zərurət doğursun. Bunlar hamısı gözlənilməndir. Məhz bu fonda yenə də Əli Rzanın ədəbi görüşləri qollu-budaqlı orman bir abidəyə bənzəyir.Necə deyərlər, "bənzərəm bir qocaman dağa ki, dəryada durar" misalındadır. Ə.Xələflinin ədəbi tənqidinə məhz bu rakursdan yanaşmaq lazımdır. Əsaslı fundamental, klassik bir elmi üslubda tədqiqat işi yazmaq gərəkdir. Ümumiyyətlə, onun bədii yaradıcılığı tədqiqata necə cəlb edilibsə, publisistikası və ədəbi görüşləri də bu sayaq elmi şərhinə tapınmalıdır. Bu isə dərin və geniş, mənəvi yetkinlik, fiziki möhkəmlik, ədəbi bilicilik, səbir və təmkin tələb edir. Belə bir fikir aksioma kimi qəbul olunandır; ədəbi tənqidçi, yazıçı fikrini qabaqlamalıdır. Yazıçı sözünü tənqidi düşüncələr sistemi ilə əvəz etmək isə məsuliyyətin həddini hər kəsə ünvanlayır. Müəyyən səbəblərə görə mənsə bu həddin önündə dayanmağı məsləhətli bildim. Qaldı Ə.Xələflinin poetik dünyasına daxil olmağa, onun poema və qəsidələrinin təsir gücünün komponentlərinə münasibətə. Bu yazının timsalında deyə bilərik ki, müəllifin bəyəndiyi bir neçə yazımızda bu münasibətin səviyyəli nümunəsini yaratmışıq. Yeni eramızın ilk onilliklərində klassikləşən Ə.Xələflinin poetik irsi, ümumiyyətlə, ədəbi xəzinəsi özü haqqında kitabların yazılışına rəvac verəcəkdir. Buna özümə inandığım kimi inanıram. İnanıram ki, özün də bu cür düşünürsən, gözüm nuru!

***07.04.2023***